# TÜRKPA üzv parlamentlərinin Səhiyyə komitələri sədrlərinin ikinci iclasının iştirakçıları Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər










**Yanvarın 22-də ölkəmizdə səfərdə olan TÜRKPA üzv parlamentlərinin Səhiyyə komitələri sədrlərinin ikinci iclasının iştirakçıları Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, nümayəndə heyətləri əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad ediblər, məzarı önünə tər güllər düzüblər.

İclas iştirakçıları həmçinin Şəhidlər xiyabanını ziyarət edərək, ölkəmizin azadlığı uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə gül dəstələri düzüblər, "Əbədi məşəl" abidəsini ziyarət ediblər.

Sonra nümayəndə heyətləri 1918-ci ildə Bakının azad edilməsi uğrunda döyüşlərdə şəhid olmuş türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsini ziyarət edib. Abidənin önünə gül dəstələri qoyulub.

Ziyarət zamanı iclas iştirakçılarını Milli Məclisin komitə sədrləri Əhliman Əmiraslanov və Musa Quliyev, həmçinin deputatlar Heydər Əsədov, Rəşad Mahmudov və digər rəsmi şəxslər müşayiət ediblər.

***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 23 yanvar (№ 14).- S.4.